Yeni kitab

# "Heydər Əliyev və Azərbaycanda kitabxana işi"

## Milli kitabxana quruculuğu sahəsində misilsiz xidmətlər göstərmiş ulu öndərin xatirəsinə sanballı töhfə

◆ *Bakı Dövlət Universiteti kitabxanaşünaslıq kafedrasının müdiri, əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyafovun "Heydər Əliyev və Azərbaycanda kitabxana işi" adlı fundamental monoqrafiyası bu günlərdə Azərbaycan Dövlət Nəşriyyatında nəfis şəkildə çapdan çıxmışdır.*

**Monoqrafiyanın "Türk dünyasının böyük oğlu, Azərbaycan xalqının xilaskarı, müstəqilliyimizin banisi, görkəmli dövlət xadimi, ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsinə həsr edirəm" sözləri ilə başlayan müəllif bu məşhur şəxsiyyətin bir kəlamını kitaba epiqraf seçmişdir: "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir".**

Ömrünü Azərbaycanda kitabxana işi tarixinin öyrənilməsinə həsr etmiş, ali kitabxanaçılıq təhsilinin inkişafına misilsiz töhfələr vermiş və milli kitabxanaşünaslıq elminin əsasını qoymuş professor A.Xələfovun nəvbəti monoqrafiyası uzun illərdən bəri apardığı gərgin elmi axtarışların uğurlu nəticəsi kimi milli öndərimizə dərin məhəbbətlə qələmə alınmışdır.

Tarixçilərin haqlı olaraq Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında dönüş dövrü kimi dəyərləndirdikləri 1969-cu ildən sonrakı mərhələdə, yəni Heydər Əliyevin respublikamızın rəhbəri vəzifəsində çalışdığı müddətdə bütün sahələrdə baş verdiyinə müsbət dəyişikliklərin və qazanılmış nailiyyətlərin elmi şəkildə təhlil edilib öyrənilməsi və ümumiləşdirilməsi problemi hazırda mühüm aktuallıq kəsb edir. Bu baxımdan həmin illərdə ölkəmizdə kitabxana quruculuğu sahəsində həyata keçirilmiş tədbirlərin, əhaliyə kitabxana xidmətinin təşkilində meydana çıxmış yeni iş, forma və üsullarının konkret faktlar əsasında obyektiv şəkildə araşdırılması da öz elmi həllini gözləyirdi. Bəri başdan deməliyik ki, bu məsuliyyətli və şərəfli vəzifə nəticə ilə öhdəsindən məhz bu işə tam mənəvi haqqı qatan professor A.Xələfov böyük əzmkarlıqla gəlmişdir.

Monoqrafiya zəngin tarixi olan kitabxana işi sahəsində müasir dövrdə yaranmış boşluğun doldurulması, kitabxana quruculuğu sahəsində ümummilli liderimizin misilsiz xidmətlərinin təhlil edilməsi, kitabxanaların inkişafı ilə bağlı nəhəng fəaliyyətinin ümumiləşdirilməsi, ölməz ideyalarının, əvəzsiz nəsəri irsinin gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyətə malikdir. Müəllif 19,5 çap vərəqi həcmində olan fundamental elmi əsərdə Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan kitabxana quruculuğu sahəsində Heydər Əliyevin misilsiz xidmətlərini konkret tarixi faktlara və statistik rəqəmlərə əsaslanaraq ümumiləşdirmiş, inandırıcı və məntiqi elmi nəticələr çıxarmışdır.

Monoqrafiyanın "Azərbaycanda kitabxana işinin inkişafında Heydər Əliyev mərhələsi (XX əsrin 70–80-ci illəri)" adlanan I fəslində kitabxanaların xalqımızın mədəni-mənəvi tərəqqisində və cəmiyyətdəki rolu haqqında Heydər Əliyevin fikirləri şərh olunmuş, həmçinin onun XX əsrin II yarısında respublikada kitabxana şəbəkələrinin inkişafı, kitabxanaların mərkəzləşdirilməsi, kitabxana fondlarının inkişafı, əhaliyə kitabxana xidmətinin yaxşılaşdırılması, kitabxanaların maddi-texniki bazasının və kadr potensialının möhkəmləndirilməsi istiqamətində fəaliyyəti konkret faktlar əsasında təhlil edilmişdir.

XX əsrin 60-cı illərində respublikamızda ictimai-siyasi və sosial-iqtisadi sahələrlə yanaşı, mədəniyyət sahəsində də gerilənələrin baş verdiyini dəlillərlə əsaslandıran müəllif belə bir acınacaqlı faktı oxucuların diqqətinə çatdırır: O dövrdə Sov.İKP MK katibi vəzifəsində işləyən Şepilov müttəfiq respublikaların rəhbər orqanlarına müraciət edərək, ölkə büdcəsində yaranmış çətinliklərin aradan qaldırılması üçün mədəniyyət sahəsində ixtisarlar aparılmasını və əldə edilən vəsaitin İttifaq büdcəsinə yönəldilməsini təklif edibmiş. O vaxt bu problemi qonşu respublikalar çox asanlıqla həll etmişdilər: hey bir mədəni-maarif ocağını, hey bir kitabxananı ləğv etmədən böyük müəssisələrdə bir-iki nəfər əməkdaşı ixtisara salmaqla vəziyyətdən çıxmışdılar. Azərbaycanda isə həmin məsələ öz həllini başqa cür tapmışdı. İxtisasca geoloq olan və MK-nın ideoloji işlər üzrə katibi vəzifəsindən çıxarıldıqdan sonra respublikanın mədəniyyət naziri təyin edilən A.Bayramovun bircə həftə əmri ilə o vaxtlar nə az, nə çox – düz 500 kənd kitabxanası ləğv edilmişdi!

Professor A.Xələfov yazır ki, Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə təyin edildikdən sonra həmin məsələ ilə maraqlanmış, mədəniyyət nazirinin imzaladığı əmrin ciddi səhv olduğunu bildirmiş və bu kobud səhvi düzəltmək üçün lazımi göstərişlər vermişdi. Yalnız bundan sonra Azərbaycan Respublikası Dövlət Plan Komitəsi hər il orta hesabla 100 kənd kitabxanasının bərpa edilməsi haqqında plan hazırlamış və ləğv edilmiş kitabxanaları təxminən 4-5 ilə yenidən bərpa etmək mümkün olmuşdu.

Bu fəsildə həmçinin kitabxana işinin inkişafında keyfiyyətcə yeni mərhələ sayılan kitabxanaların mərkəzləşdirilməsi prosesinin uğurla həyata keçirilməsinə Heydər Əliyevin qayğısı və diqqəti öz əksini tapmışdır. Belə ki, əsasən 1975-1980-ci illərdə həyata keçirilmiş mərkəzləşmə nəticəsində Azərbaycanın 8 şəhərində 111 filialı olan mərkəzləşdirilmiş kitabxana sistemi (MKS), rayonlarda isə 3174 filialı olan 69 MKS yaradılmışdı. Təəssüf ki, şəhər kitabxanalarının, xüsusilə Bakı şəhərindəki kütləvi kitabxanaların mərkəzləşdirilməsi prosesini müəyyən obyektiv və subyektiv çətinliklər ucbatından başa çatdırmaq mümkün olmamış, yalnız Nizami və Xətai rayonlarında bu məsələ uğurla həll edilmişdi.

Mərkəzləşdirməninə müsbət nəticələrini xüsusilə vurğulayan professor A.Xələfov yazır ki, mərkəzləşmə zamanı kütləvi kitabxanaların kitab fondu 5 milyon nüsxə, kitab verilişi 9 milyon nüsxə, oxucuların sayı 513 min nəfər artmış, respublikamızda 332 yeni kitabxana açılmışdı. Ümumiyyətlə, 1969-1985-ci illərdə respublikamızda 1200 yeni kitabxana açılmışdı ki, bunların da 1100-ü kənd yerlərində idi.

Həmin dövrdə müxtəlif tipli və növlü kitabxanalar üçün yüksək ixtisaslı kitabxanaşünas-biblioqraf kadrlar hazırlayan Bakı Dövlət Universiteti kitabxanaçılıq fakültəsinin fəaliyyətini də təhlil edən monoqrafiya müəllifi bu sahədə də mühüm nailiyyətlərin qazanıldığını faktlarla əsaslandırmışdır.

Monoqrafiyanın II fəsli "Heydər Əliyev və müstəqillik illərində Azərbaycanda kitabxana işi" mövzusuna həsr edilmişdir. Bu fəsildə əlim 1993-2003-cü illərdə kitabxana işi sahəsində respublikamızda aparılan dövlət siyasətini, bu siyasətin həyata keçirilməsində Heydər Əliyevin böyük rolunu və qayğısını geniş şəkildə əks etdirmişdir. Burada bazar iqtisadiyyatına keçid dövrü şəraitində kitabxanaların qorunub saxlanılması ilə yanaşı, kitabxana işinin inkişafı istiqamətləri və dövlətin bu sahədə siyasətinin formalaşmasında Heydər Əliyev ideyalarının şərhinə geniş yer verilmişdir.

Professor A.Xələfov yazır ki, Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışına qədər digər sahələrdə olduğu kimi, kitabxana işi sahəsində də dözülməz özbaşılıqlar təcrid olunmuşdu. Belə ki, 80-ci illərin ikinci yarısından başlayaraq Sovet İttifaqında aparılan yenidənqurma işlərinin iflasa uğraması, ölkədə baş verən iqtisadi böhran öz təsirini Azərbaycana da göstərmişdi. Kitabxana işinə ayrılan maliyyə vəsaiti xeyli azalmışdı və bu da öz təyinatı üzrə xərclənmirdi. 1988-ci ildən respublikada iqtisadi və siyasi böhran daha da kəskinləşmiş, idarəetmədə ciddi hərc-mərclik yaranmışdı. 1988-ci ilin axırlarından Ermənistandakı şovinist qrupların təhriki ilə alovlanmağa başlayan qondarma Dağlıq Qarabağ problemi bu böhranı daha da dərinləşdirmişdi. Respublikamızda mədəniyyət müəssisələrinin, o cümlədən kitabxana işinin vəziyyəti olduqca pisləşmişdi. 1993-cü ilə qədər davam etmiş bu proses kitabxana işinə böyük zərbə vurmuş, torpaqlarımızın daşnak tör-töküntüləri tərəfindən işğalı zamanı 4 milyon nüsxə kitabı olan 982 kitabxana məhv edilmişdi.

AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə isə kitabxanaların ayrılan vəsait azaldılıb minimuma endirilmiş, özəlləşdirmə adı altında kitabxanaların ləğvi və kitabxana binalarının satışı kampaniyası başlanmışdı. 1992-ci ildə Respublika Tibb Kitabxanası başqa yerə köçürülmüş, bina ABŞ səfirliyinə verilmişdi. Həmkarlar İttifaqının nəzdində olan kitabxanası hesab edilən Qubkin adına kitabxananın da taleyi acınacaqlı olmuşdu. Həmin illərdə həmçinin bir sıra idarə və müəssisələrin, siyasi və ictimai təşkilatların kitabxanaları ləğv edimişdi.

1991-ci il sentyabrın 14-də iflasa uğramış Azərbaycan Kommunist Partiyası özünü buraxdıqdan sonra partiya kitabxanaları tamamilə başsız qalmış, onların gələcək taleyi haqqında heç bir tədbir görülmədiyindən tamamilə pərakəndə şəkildə dağılmağa başlamışdı. Halbuki burada tarixi, ədəbi-bədii, incəsənətə dair qiymətli ədəbiyyat saxlanılırdı. Lakin qiymətli ədəbiyyatın qorunub saxlanması, dövlət kitabxanalarına verilməsi haqqında heç bir tədbir görülmədi.

Professor A.Xələfovun fikrincə, əgər bu proses davam etməydi, onda respublikamızın kitabxana ictimaiyyəti böyük faciə qarşısında qala bilərdi. Alim yazır ki, Sovetlər İttifaqı dövründə respublikamızda fəaliyyət göstərən kitabxana şəbəkələrindən ən böyüyü Azərbaycan Həmkarlar İttifaqının kitabxana şəbəkəsi idi. 1990-cı ildə bu şəbəkədə 4 milyon nüsxə kitab fonduna malik 326 kitabxana var idi. Müstəqillik əldə edildikdən sonra Həmkarlar İttifaqı Mərkəzi Şurasının ləğv olunması, sahə həmkarlar ittifaqı təşkilatının müstəqil fəaliyyətə başlaması nəticəsində böyük hərc-mərcilik baş vermiş, maliyyə böhranı başlamışdı. Məhz belə bir şəraitdə həmkarlar təşkilatları öz kitabxanalarını maliyyələşdirə bilmədi. Həmçinin kitabxanaları olan bəzi idarə və müəssisələr kitabxanalarını binalarını də kəçirmək üçün bu prosesi daha da gücləndirdilər, nəticədə kitabxanalar kütləvi surətdə bağlanmağa məruz qaldı. O dövrdə başı özünə qarışmış dövlət rəhbərləri də heç bir tədbir görmədilər. Beləliklə, qısa müddətdə həmkarlar təşkilatlarının 236 kitabxanası bağlanmış, onların fondu insafsızcasına talan edilmiş, 1.326.590 nüsxə kitab fondu olan 90 kitabxana qalmışdı. Bu qiymətli fondun o dövrdə dağıdılıb məhv edilməsi Azərbaycan mədəniyyətinə vurulan böyük zərbə idi.

Həmin dövrdə respublikamızda ən çox zərər çəkən kitabxana şəbəkələrindən biri də texniki kitabxana şəbəkəsi olmuşdur. Texniki kitabxanaların İller boyu toplanmış, formalaşmış zəngin fondu və avadanlığı qısa müddət içərisində tamamilə talan edilmişdi. Texniki kitabxanalar əsasən Azərbaycan Dövlət Plan Komitəsinə və həmkarlar təşkilatlarına tabe idilər. Bu təşkilatlar isə texniki kitabxanaları xilas etmək üçün heç bir əsaslı tədbir görməmiş, qorar qəbul etməmişdilər. Beləliklə, 1991-1992-ci illərdə 100-ə yaxın texniki kitabxana bağlanmışdı.

Həmin illərdə respublika hökumətinə kitabxanaları məhv olmaq təhlükəsindən xilas etmək üçün heç bir tədbir görmədiyindən kitabxana şəbəkələri olan digər nazirliklərdə də hallar kütləvi surətdə baş vermiş, kitabxanalar bağlanmışdı.

Müəllifin yazdığı kimi, yalnız 1993-cü ildə Heydər Əliyev yenidən hakimiyyətə gəldikdən sonra kəcid dövrünün çətinliklərinə baxmayaraq, əsl vətəndaş cəmiyyəti quruculuğuna başlanıldı. Keçid dövründə ölkə vətəndaşlarının informasiya təminatında, kitabxana-informasiya xidmətinin təşkilində, informasiya cəmiyyəti quruculuğunda mühüm əhəmiyyət kəsb edən kitabxana işi də mühüm dəyişikliklərə, islahatlara məruz qaldı. Sosialist quruculuğu dövründə kitabxana işi sahəsində formalaşan, əsasən ideoloji xarakter daşıyan prinsiplərdən imtina edilməklə, formalaşmaqda olan yeni müstəqil Azərbaycan cəmiyyətinin demokratik, dünyəvi prinsipləri kitabxana işinə tətbiq edilməyə başlandı. Kitabxana işi ideoloji buxovlardan azad edildi. Kitabxana işinə demokratləşmə, milliləşmə və azərbaycanlaşma ab-havası gətirildi. Kitabxanalar milli ideologiyanın formalaşmasında və təbliğində yaxından iştirak etməyə başladılar.

Ulu öndərin bilavasitə rəhbərliyi və qayğısı sahəsində kitabxanalar ləğv edilməkdən xilas oldu, kitabxanaların qorunub saxlanılması uğrunda dövlət mübarizəyə başladı. Ona görə də 1993-1999-cu illər Azərbaycanda kitabxana işinin tarixinə kitabxanaların qorunub saxlanılması uğrunda mübarizə illəri kimi daxil olmuşdur.

1996-cı ildə Azərbaycan Nazirlər Kabineti "Kitabxana işi haqqında" qərar qəbul etdi. Bu qərarda kitabxana şəbəkələrini qoruyub saxlamaq və əhaliyə xidmət işini yaxşılaşdırmaq üçün Azərbaycan Mədəniyyət Nazirliyinin qarşısında ciddi vəzifələr qoyulmuşdu. Qərar kəcid dövründə kitabxanaların qorunub saxlanılmasına xeyli kömək göstərdi.

1998-ci ildən başlayaraq dövlət büdcəsində kitabxanalara yeni kitablar almaq üçün vəsaitin nəzərdə tutulması və onun ilbəil artırılması əhaliyə kitabxana xidmətinin təşkili işini xeyli yaxşılaşdırdı. Ölkəmizdə özəl müəssisələrin yaradılması ilə əlaqədar olaraq yeni özəl kitabxanalar təşkil edilməyə başlandı. Xususilə təhsil sahəsində özəl təhsil kitabxana şəbəkəsi, ali və orta ixtisas məktəbləri kitabxana şəbəkəsi formalaşmağa başlamışdı.

Ulu öndərin dövlət başçısı olduğu on ildə (1993-2003) mənəvi sərvətimiz olan kitabxanaların qayğısını, respublikanın bütövlükdə kitabxana sisteminin və şəbəkələrinin qorunub saxlanması sahəsində həyata keçirdiyi tədbirləri qiymətləndirmək üçün kitabxana işinin kəcdiyi yola qısaca nəzər salan professor A.Xələfov yazır ki, respublikamızda on böyük kitabxana şəbəkəsinə malik Mədəniyyət Nazirliyi sistemində hazırda 1 milli kitabxana, 3 respublika əhəmiyyətli sahəvi kitabxana, 74 şəhər və mərkəzi rayon kitabxanası, 3744 kənd kitabxanası fəaliyyət göstərir. Orta hesabla əhalinin hər 700 nəfərinə bir stasionar kitabxana düşür. Kitabxanaların fondunda 35,9 milyon nüsxə kitab (sənəd) toplanmışdır. Bir il ərzində kitabxanalara 121,76 nüsxə kitab, 22 min nüsxə audiovizual sənəd daxil olmuşdur. Bu ədəbiyyatın 101,18 nüsxəsini Azərbaycan dilində ədəbiyyat təşkil etmişdir. Bu rəqəmlərdən göründüyü kimi, itisadi çətinliyə baxmayaraq kitabxanaların fəaliyyətini davam etdirməsi üçün dövlət əlindən gələni etmişdir. Kitabxanalar il ərzində 2804 mindən çox oxucuya xidmət göstərmişdir.

Müəllif qeyd edir ki, ulu öndərimizin təşəbbüsü ilə yaradılan Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin kitabxanası hazırda bu fondunun zənginliyi, oxuculara xidmət işinin yeni forma və üsulları, habelə yeni informasiya texnologiyalarının tətbiq edilməsi cəhətdən respublikamızda ən müasir mədəniyyət və informasiya ocağına çevrilmişdir.

Professor A.Xələfov ölkəmizdə kitabxana işinin beynəlxalq standartlara müvafiq təşkilində kadr potensialının mühüm rol oynadığını qeyd edərək yazır ki, 1993-2003-cü illərdə respublikamızda ali və orta ixtisas təhsilli kitabxanaçı kadrların hazırlanmasına xüsusi diqqət yetirilmiş, Bakı Dövlət Universitetinin kitabxanaçılıq-informasiya fakültəsində ali ixtisas təhsilli, Bakı Mədəni-Maarif Texnikumunun kitabxanaçılıq bölməsində orta ixtisas təhsilli kitabxanaçı kadrlar hazırlanması prosesi müvəffəqiyyətlə davam etdirilmişdir. Yüksək ixtisaslı kitabxanaçı kadrlar hazırlanmasında xüsusi xidmətləri olan Bakı Dövlət Universitetinin kitabxanaçılıq-informasiya fakültəsi öz fəaliyyəti dövründə 5.000 nəfərə qədər peşəkar kitabxanaçı-biblioqraf və kitabşünas kadr hazırlamışdır. Demək olar ki, fakültənin hazırladığı kadrlar Azərbaycanda əhaliyə kitabxana xidmətini təşkil edən kitabxana sistem və şəbəkələrində nəzəri etməklə Azərbaycanın qabaqcıl ziyalıları kimi böyük şöhrət qazanmışlar. Müstəqillik illərində fakültədə böyük islahatlar aparılmış, kadr hazırlığının keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlmiş, informasiya cəmiyyətinin tələblərinə və kitabxanalarda informasiya texnologiyasının tətbiqinə müvafiq fakültənin tədris planına kitabxana işinin kompüterləşdirilməsi ilə əlaqədar bir çox yeni fənlər əlavə edilmiş, elmi kadrların aspirantura vasitəsilə hazırlanmasında ciddi nailiyyətlər əldə edilmişdir. Fakültənin çoxpilloli təhsil sistemino keçməsi, bakalavrlarla yanaşı, magistrlərin hazırlanmasına başlanılması kadr hazırlığının potensial imkanlarını gücləndirməklə böyük elmi kitabxanalarımızı yüksək peşəkar kadrlarla tamin etmək imkanı yaratmışdır.

Hazırda respublikamızın kitabxanalarında təxminən 30 min nəfər kitabxana işçisi çalışır. Bunlardan 8167 nəfəri Mədəniyyət Nazirliyinin kitabxana sistemində işləyir. Onların 1552 nəfəri ali təhsilli, 1204 nəfəri ali ixtisas təhsilli, 3273 nəfəri isə orta və orta ixtisas təhsilli işçilərdir.

**Bu da maraqlıdır ki, müəllifin təxmini hesablamalarına görə, 1970–1993-cü illərdə Heydər Əliyevin 1500 çap vərəqi həcmində 209 adda kitabı nəşr edilmişdir. Bunlardan 151 adda kitab 1970-1993-cü illərin, qalan kitablar isə müstəqillik dövrünün payına düşür. Azərbaycan və rus dillərində nəşr edilmiş bu kitabların 23 min səhifədən artıq olmasına diqqəti cəlb edən müəllif haqlı olaraq bu faktı Heydər Əliyev əsərlərinə böyük tələbat və maraqdan irəli gəlməsi ilə izah edir və belə bir məsələni də vurğulayır ki, dünyanın heç bir görkəmli dövlət xadimi bu qədər əsərin – zəngin elmi-nəzəri irsin müəllifi olmamışdır.**

Məhz buna görə də professor A.Xələfov kitaba daxil etdiyi əlavələrdə kitabxana işi ilə bağlı olan bir sıra mühüm sənədləri də oxucuların diqqətinə çatdırmağı lazım bilmişdir. Burada müasir dövrdə müxtəlif tipli və növlü kitabxanalarda Heydər Əliyev irsinin səmərəli tətbiqi məqsədilə ümummilli liderin həyat və fəaliyyətinin qısa tarixçəsi, təliflər, əsərlərindən seçmələr, dünyanın görkəmli siyasətçilərinin, elm və mədəniyyət xadimlərinin onun haqqında fikirləri verilmişdir. Yeri gəlmişkən, Heydər Əliyevin kitabdakı müdrik kəlamları və aforizmləri müxtəlif mövzularda kütləvi tədbirlər təşkil edən kitabxana işçilərinin zəruri tələbatlarını ödəmək məqsədinə xidmət göstərməklə yanaşı, bütün yazılarımız və oxucular üçün çox faydalı olu bilər.

Dünyanın görkəmli dövlət xadimlərinin, siyasətçilərinin, elm və mədəniyyət xadimlərinin Heydər Əliyev haqqında söylədikləri fikirlərdən seçmələrin venrilməsi də çox əhəmiyyətlidir. Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü bir daha təsdiq edən həmin fikirlərin kitabxanalarda təşkil edilən fərdi və kütləvi tədbirlərdə, habelə ulu öndərin zəngin irsinin oxucular arasında təbliğində istifadə edilməsi çox gərəklidir.

Heydər Əliyevin kitabxana işinə dair çıxışlarının, həmçinin Azərbaycan Respublikasının Prezidenti kimi imzaladığı "Kitabxana işi haqqında", "Mədəniyyət haqqında", "İnformasiya, informatlaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunların və başqa sənədlərin monoqrafiyaya əlavə edilməsi çoxsaylı kitabxana işçilərinin bu mühüm dövlət sənədlərinə olan ehtiyacını ödəmək məqsədinə xidmət göstərir.

**Əminik ki, kitabxana işçiləri, habelə mədəniyyət tarixi və ulu öndərin həyat və fəaliyyəti ilə məşğul olan tədqiqatçılar, əlavə də mədəniyyət və kitabxanaçılıq təhsili müəssisələrinin tələbələri və professor-müəllim heyəti üçün nəzərə tutulmuş bu sanballı monoqrafiya bütövlükdə geniş oxucu kütləsinin marağına səbəb olacaq və stolüstü kitaba çevriləcək.**

*Knyaz ASLAN,*
*Bakı Dövlət Universiteti kitabxanaşünaslıq kafedrasının dosenti, pedaqoji elmlər namizədi*

# Rəsul Quliyevin siyasi perspektivi yoxdur

## Bunu ADP-nin keçmiş funksioneri də etiraf edir

*Artıq bir aydan çoxdur ki, ADP sədri Rəsul Quliyev yeni "metodla" işləyir. Əvvəlcə partiyanın rayon təşkilatlarına xəbər göndarir ki, filan vaxt bir toplantı yapın. İki-üç nəfər bir yerə yığışır, adını da qoyurlar toplantı. Bu zaman partiya sədri zəng vurur və öz "təvsiyələrini" verir. Hələlik Ucar, Qəbələ, Ağdaş, Göyçay və bir neçə başqa təşkilat "təvsiyə" alıb. Nədir bu "təvsiyələr"? Rayon təşkilatlarının rəhbərləri onları açıqlamırlar. Ucar rayon təşkilatının sədri Məhəmməd Məmmədov deyib ki: "Rəsul müəllim yeni mübarizə taktikası barədə fikirlərini bildirdi. Ona sualar verdik, görüş sual-cavab şəraitində çox maraqlı keçdi. Sədrimizin fikirləri bir çox məsələlərə aydınlıq gətirməklə, təşkilatda ruh yüksəkliyini daha da artırdı. Rəsul müəllimə rayonda ona böyük etimad olduğunu bildirdik".*

Haqlı suallar çıxır ortaya: Görəsən, R. Quliyevin yeni mübarizə taktikası barədə fikirləri nə imiş? Partiya sədri onları rayon təşkilatlarına niyə özü çatdırır? Olmaya qorxur ki, müavinləri həmin fikirləri öz adlarına çıxarlar? Yoxsa ehtiyat etir ki, partiya rəhbərliyində təmsil olunanlar onunla həmfikir olmasınlar? Yaxud R. Quliyevin hansı fikirləri məsələlərə aydınlıq gətirib? Və sonda M. Məmmədova kim səlahiyyət verib ki, rayon camaatı adından danışır? Əlbəttə, bütün bunlar məlum gedişlərdir, yalnız və yalnız partiya sədrinə siyasi xal qazandırmaq məqsədi daşıyır.

R. Quliyev siyasi meydanda potensialı tükənmiş adamdır. 1996-cı ildə Milli Məclisin şikerliyindən istefa verəndə ona az da olsa sadələvhcəsinə inanlar vardı. Sərdar Cəlaloğlu məhz buna görə onu ADP-yə dəvət etmişdi. Lakin ötən illər ərzində nə demokratlar R. Quliyevin xeyirini gördü, nə də eks-spiker demokratların. Əksinə, R. Quliyev gələndən ADP-də çəkişmələr artdı. İ. İsmayılov öz ədalətçiləri ilə demokratlardan ayrıldı. N. Məmmədli Məclis sədrliyindən getdi. Çoxsaylı demokratlar öz təşkilatlarına "əlvida" dedilər. ADP eə vəziyyətə düşdü ki, qorarqahının qapısı günlərlə açılmadı.

Okeanın o tayından – on min kilometrlərlə aralıdan burada partiya idarə etmək təbii ki, qeyri-mümkündür. Bu, o halda mümkün olardı ki, müasir siyasi proseslərі təhlil etməyi bacaran, hadisələri düzgün qiymətləndirən, ambisiyadan uzaq, rəhbərlikdə olan adamlar arasında, eləcə də onlarla sıravilər arasında gözəl münasibətlər yaradan müavin olsun. S. Cəlaloğlu bu keyfiyyətlərdən uzaqdır, partiyada hamının onun göstərişi ilə hərəkət etməsini istəyən hikkoli adamdır. O, bəzən partiya sədri ilə də hesablaşmır. Partiya funksionerləri isə onun belə hərəkətlərinə dözmürlər.

Bütün bunlara baxmayaraq, ADP sədri birinci müavini S. Cəlaloğlunun nazı ilə oynamaq məcburiyyətindədir. Dəfələrlə Bakıya dönəcəyini bəyan etsə də, gələ bilmir. Çünki bərəsinə də hebs qətimkan tədbiri seçilib. Ya ölkəyə qayıdıb məhkəmə qarşısında cavab vermoli, ya da susub xaricdə yaşamağını davam etdirməlidir. R. Quliyev ölkəyə qayıtmaq barədə bəyanatları ilə partiyasında öz nüfuzunu getdikcə aşağı salır. Artıq müxalifət düşərgəsinin özündə də onun bu qeyri-ciddi bəyanatlarına qarşı çıxanlar var. ASDP həmsədri Araz Əlizadə hətta R. Quliyevin Bakıya qayıdışının A. Mütəllibovun qayıdışı ilə müqayisəsinə də etiraz edir: "Rəsul Quliyevin qayıdıb-qayıtmaması məni qətiyyən maraqlandırmır. Rəsul Quliyev oğrudur və ona qarşı iddialar Ayaz Mütəllibova qarşı irəli sürülmüş iddialardan tam fərqlidir. Rəsul Quliyev Ayaz Mütəllibovu devirənlərdən biridir. Xahiş edirəm, onları eyniləşdirməyin... Heç onların qayıdışları da eyniləşə bilməz. Oğru ilə doğru arasında fərq olmalıdır".

Görünür, bunları anladığına görə ADP sədri rayon təşkilatları ilə birbaşa əlaqəyə girməyi qərara alıb. Amma güman etmirik ki, bunların ona köməyi dəyişin. Ön ildə partiyanı azca da olsun irəli apara bilməməsi demokratların ona inamını itirib. Bu baxımdan ADP-nin keçmiş funksioneri Babək Hüseynoğlunun R.Quliyevin siyasi perspektivinin olmaması barədə fikirləri diqqət çəkir. Həmin fikirləri R. Quliyevə "ayı xidməti" adlandıran "dempartiya" sədrinin birinci müavini S. Cəlaloğlu dolayısıyla keçmiş funksioneri ADP-də baş veron prosesləridən konar durmağı məslohət görür.

**Babək Hüseynoğlu belə hesab edir ki, ADP sədri 60 yaşını haqlayıb. Bu, o deməkdir ki, R. Quliyev artıq qocalıb. Bu yaşda adamın siyasi perspektivi haqqında danışmaq yersizdir. ADP-nin keçmiş funksioneri əlavə edir: "Mənim fikrimcə, yaşın həlledici əhəmiyyəti var. Söhbət Heydər Əliyevin 70 yaşından sonra hakimiyyətə gəlməsindən gedirsə, bu, tamam başqa bir şeydir. Çünki Heydər Əliyev dünyadakı nadir şəxsiyyətlərdən biri idi". B. Hüseynoğlu deyir ki, R. Quliyevin Azərbaycana indiyə qədər bir neçə dəfə dönmək imkanı olub. Amma o, bunu qiymətləndirməyib. ADP-nin keçmiş funksioneri R. Quliyev üçün bundan sonra belə imkanın yaranacağına şübhə edir.**

Keçmiş ADP-çi həmin partiyadan getməsinin səbəbini də açıqlayır: "Təkcə onu bildirmək istəyirəm ki, mən 4-5 il əvvəl ADP-də olmuşam. Orada baş veron prosesləri gördükdən sonra ADP-də qalmaq istəmədim. O zaman partiyanın aqibətinin necə olacağını görürdüm. Bu gün isə, təəssüf ki, həmin proqnozların özünü doğrultduğunu görürəm".

ADP iflasa uğramaqdadır. Bu işdə partiya sədrinə inamsızlıq, təşkilat daxilindəki çəkişmələr, ADP rəhbərliyindəki adamların öz əsəri maraqlarını partiya maraqlarından üstün tutması az rol oynamır. Bunlar elə problemlərdir ki, demokratlar istəsələr də, onları aradan qaldıra bilməyəcəklər.

*T. ƏZİZ, "Xalq qəzeti"*